# Azərbaycan səfiri Amangəldi Tuleyevə “Dostluq” ordeni təqdim edib

Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın Kemerovo vilayətinin qubernatoru Amangəldi Tuleyevin Azərbaycan ilə Rusiya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında xüsusi xidmətlərinə görə “Dostluq” ordeni ilə təltif edilməsi haqda sərəncam imzalayıb. Bununla əlaqədar Azərbaycanın Moskvadakı səfiri Polad Bülbüloğlu Prezidentin tapşırığı ilə Kemerovo vilayətinə səfər edib.

Azərbaycanın Rusiyadakı səfirliyinin mətbuat xidmətindən verilən məlumata görə, fevralın 10-da Kemerovo vilayətinin qubernatoru Amangəldi Tuleyevlə Azərbaycan səfiri Polad Bülbüloğlu arasında görüş olub.

Görüşdə tərəflər Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin səviyyəsindən məmnun olduqlarını bildiriblər. Polad Bülbüloğlu vilayətin rəhbərinə ordeni təqdim edərək ona uğurlar arzulayıb. Səfir qeyd edib ki, Azərbaycan təkcə Rusiyanın mərkəzi ilə deyil, bu ölkənin regionları ilə də ikitərəfli əlaqələrin inkişaf etməsində maraqlıdır. O vurğulayıb ki, Rusiyanın bir sıra regionları ilə bu istiqamətdə iş aparılır. Azərbaycan səfiri ikitərəfli münasibətlərin möhkəmlənməsində və inkişafında prezidentlər İlham Əliyevin və Vladimir Putinin xüsusi rolunu qeyd edib.

Amangəldi Tuleyev bu yüksək mükafata görə Azərbaycan Prezidenti İlham Əliyevə dərin minnətdarlığını bildirərək deyib ki, bu etimadı doğrultmaq üçün əlindən gələni edəcək. Vilayətin rəhbəri onu da qeyd edib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevlə çox yaxşı işgüzar, dostluq münasibətləri olub. A.Tuleyev çətin anlarda Heydər Əliyevin dəfələrlə Kuzbasa gəlməsini, bir sıra məsələlərin həllinə kömək etməsini xatırlayıb.

Amangəldi Tuleyev Azərbaycan diasporu barədə də danışıb. O vurğulayıb ki, vilayətdə 7000-dən çox azərbaycanlı yaşayır. Xeyli hissəsi rəhbər vəzifələrdə çalışan bu insanlar öz millətini ləyaqətlə təmsil edir, bütün işlərdə kömək edirlər. A.Tuleyev deyib: “Cənab səfir, sağ olun ki, siz görkəmli dövlət xadimi olmaqla bərabər, həm də qeyri-adi yaradıcı şəxsiyyət, bütün postsovet məkanında, bütün dünyada tanınan və sevilən, adı böyük hərflərlə yazılmağa layiq olan sənətkar kimi qalırsınız”.

Kemerovo vilayəti qubernatorunun qərarına əsasən Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Rusiya-Azərbaycan əlaqələrinin inkişafına, yerli mədəniyyətin, mahnı irsinin zənginləşməsinə verdiyi böyük şəxsi töhfəsinə, yüksək fədakarlığa, seçdiyi işə sadiqliyinə, yüksək vətəndaş məsuliyyətinə və nadir istedadına görə Kuzbasın “Şərəf” ordeni ilə təltif edilib. Polad Bülbüloğlu Amangəldi Tuleyevə dərin minnətdarlığını bildirərək, keçən əsrin 70-80-ci illərində Kemerovoya səfəri barədə xatirələrini bölüşüb, vurğulayıb ki, bu vilayətin çox səmimi və qonaqpərvər insanları var.

Görüşdə turizm sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə dair razılıq əldə edilib. Polad Bülbüloğlu Azərbaycanın turizm imkanları barədə söhbət açıb, Amangəldi Tuleyev isə bu məsələnin öyrənilməsi barədə tapşırıq verib.

Səfər çərçivəsində Azərbaycan səfiri yerli KİV-lər üçün mətbuat konfransı keçirib. O, ikitərəfli münasibətlərin inkişafı, özünün yaradıcı fəaliyyəti, habelə Amangəldi Tuleyevin rəhbərliyi ilə bu regionun uğurlu inkişaf dinamikası barədə jurnalistlərin çoxsaylı suallarına cavab verib.

Polad Bülbüloğlu “Kuzbas şaxtaçılarının xatirəsi” monumenti önünə tər çiçəklər qoyub, “Krasnaya Qorka” muzey-qoruğunda və Kuzbas Dövlət Filarmoniyasında olub. Burada ona yüksək bədii dəyərli musiqi əsərlərinin yaradılmasına, beynəlxalq mədəni əlaqələrin möhkəmlənməsinə şəxsi töhfəsinə görə “Qızıl lira” şərəf nişanı təqdim edilib.

***Fəridə ABDULLAYEVA,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

*Moskva*